2015-ci il kənd təsərrüfatı ilidir

# Aqrar sahə inkişaf edir

Bu gün rayonumuzun hansı qəsəbəsinə, kəndinə yolu düşən olsa orada böyük bir canlanmanın şahidi olar. Bu, bir həqiqətdir ki, bölgəmizin iqtisadi gücünə, qüdrətinə rəvac verən müxtəlif təyinatlı istehsal müəssisələri, fermer təsərrüfatları həm də insanların iş yeri, qazanc mənbəyi olmaqla, doğulduğu torpağa bağlılıqlarını artırır. Vaxtilə ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan, bu gün ölkə başçısı cənab İlham Əliyevin uğurla davam etdirdiyi sosial-iqtisadi inkişaf ölkəmizin hər bir bölgəsində olduğu kimi Qəbələ rayonunda da özünü göstərir.

Qəbələ həmişə inkişaf etmiş aqrar bölgəsi kimi tanınmışdır. Rayonun əhalisinin böyük əksəriyyəti qəsəbə və kəndlərdə yaşayır. Sözsüz ki, kəndli əkinçilik və heyvandarlığa həmişə üstünlük verib. Bəzi kənd adamı, torpaq sahibi yalnız öz dolanışığı üçün bu sahəyə maraq göstərirsə, digərləri yaşadıqları qəsəbə və kənd əhalisinin kənd təsərrüfatı məhsulları ilə təminatına da çalışırlar. Bu da ilk növbədə Qəbələmizdə iqtisadiyyatın inkişaf etdirilməsi, dövlətin fermerlərə və torpaq mülkiyyətçilərinə dəstəyi ilə bağlıdır. Elə buna görə də kəndlilər indi rayonda meyvə bağlarının genişləndirilməsinə, bostan-tərəvəz bitkilərinin əkininə, ən zəruri ərzaq məhsulu olan taxıl sahələrinin məhsuldarlığının artırılmasına can-başla girişirlər.

Onu da qeyd edək ki, torpağı kəndliyə verməklə iş bitmədi. Əvvəlki illərdə sahələr minbir əziyyətlə əkilirdi, torpaqların çoxu boş qalırdı. Amma dövlətimiz iqtisadi cəhətdən gücləndikcə bu məsələlər də öz həllini tapdı. Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditləri, Aqrolizinq yolu ilə fermerlərə kənd təsərrüfatı texnikalarının satılması və həm də sifarişlə köməyə göndərilməsi indi kəndlinin əməyini yüngülləşdirib, torpağa, əməyə məhəbbət artıb. Ölkə başçısı İlham Əliyevin ölkədə bu ili "Kənd təsərrüfatı ili" elan etməsi də sahəyə göstərilən qayğının parlaq göstəricisidir.

Yuxarıda qeyd olunan məsələlər bu günlərdə rayon icra hakimiyyətində 2015-ci ilin birinci yarımilinin yekunlarına həsr edilmiş geniş yığıncaqda müzakirə edildi.

Bəri başdan deyək ki, cari ilin birinci yarımilliyinin yekunları əvvəlki illərdən fərqli olaraq Qəbələ kənd əkinçilərinə daha uğurlu olmuşdur. Belə ki, rayonda bu ilin əvvəlindən aqrar sektorda həyata keçirilən çox mühüm tədbirlər kənd təsərrüfatının və ərzaq məhsulları istehsalının dinamik inkişafına geniş imkan yaratmışdır. Bunun nəticəsidir ki, bu ilin arxada qalan müddəti ərzində, istər dənli bitkilər, istər bostan-tərəvəz və meyvə, istərsə də heyvandarlıq məhsullarının istehsalında ciddi artım müşahidə olunur. Burada Dövlət Proqramında nəzərdə tutulan tədbirlər müvəffəqiyyətlə icra olunduğuna görə əkilmiş 21.300 hektar taxıl sahələrinin hər hektarından orta məhsuldarlıq 30,3 sentner olmaqla 64.645 ton məhsul əldə olunub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7 sentner və ya 14 min ton çoxdur. Rayonda fəaliyyət göstərən "Gilan" MMC və "Həsrət" kəndli fermer təsərrüfatının uğurları daha sevindirici olub. Belə ki, hər iki təsərrüfat tərəfindən elmin və texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi yüksək məhsul istehsalı ilə nəticələnib.

Rayonda 2015-ci ilin məhsulu üçün 115 hektar sahədə kartof, 2097 hektar sahədə tərəvəz-bostan bitkiləri əkilib. Statistika məlumatına görə indiyədək 9.600 ton kartof, 8.400 ton tərəvəz məhsulları yığılıb. Hazırda sahələrdə məhsul yığımı davam edir.

Heyvandarlığın inkişafında və heyvandarlıq məhsullarının istehsalında əhəmiyyətli dərəcədə artım var. Hazırda rayonda olan iribuynuzlu mal-qaranın sayı 48.270 baş, qoyun-keçilərin sayı 218.540 baş, donuzların sayı 1.042 baş olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ət, süd, yumurta və yun istehsalı xeyli artmışdır. Belə ki, 6 ay ərzində diri çəkidə 2.573 ton ət, 17.907 ton süd, 5 milyon 912 min ədəd yumurta, 310 ton yun istehsal edilmişdir. Onu da xatırladaq ki, sahibkarlığa yaradılan dövlət dəstəyinin bariz nümunəsinin nəticəsidir ki, burada əhalinin quş ətinə və yumurtaya olan ehtiyacını ödəmək məqsədilə broyler quşçuluq kompleksi, eyni zamanda 2 iri heyvandarlıq kompleksi istifadəyə verilmişdir. Adı çəkilən komplekslər fəaliyyətə başlayandan sonra əhalinin ət, süd və yumurta məhsullarına olan tələbatının ödənilməsində müsbət dəyişikliklər baş vermişdir.

Rayonda mal-qaranın damazlıq keyfiyyətinin yaxşılaşdırılması istiqamətində də mühüm addım atılır. Hazırda 6 süni mayalanma məntəqəsində inəklərin cins tərkibini məhsuldar heyvanlarla əvəz edilməsi üçün süni mayalanma texnalogiyasına geniş yer verilir. Son məlumata görə ötən 6 ay ərzində 1839 baş inək və düyə mayalandırılmış və həmin heyvanlardan sağlam və gümrah buzovlar alınması gözlənilir.

Qeyd etmək lazımdır ki, aqrar sahədə inkişafı sürətləndirmək üçün keçən ilin sonunda kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsinin hesabına 498551 manat yardım hesablanmış və həmin vəsait bu ilin birinci rübündə plastik kartlar vasitəsilə sahiblərinə çatdırılmışdır.

Rayonda kənd təsərrüfatının mühüm sahəsi olan bağçılığın, üzümçülüyün inkişafına da xüsusi əhəmiyyət verilir. Havalar əlverişsiz keçsə də mövcud meyvə bağlarında, üzüm plantasiyalarında bol məhsul yetişmişdir.

İndi bağbanlar, üzümçülər böyük zəhmətlə yetişdirdikləri bağlardan meyvə və üzüm yığmağa başlamışlar. Heyvandarlarımızın, bağbanlarımızın, kartof, tərəvəz əkini ilə məşğul olan kənd adamlarının bu ili kənd təsərrüfatı məhsullarının istehsalını artırmaqla başa vuracaqları şübhəsizdir. Bizim bölgəmizin torpaqlarının bərəkətliliyi, münbitliyi kənd adamlarımızın torpağa bağlılığı bunu deməyə əsas verir.

**Aslan CƏLİLOV.**

# Qəbələdə turizm inkişaf edir

Qəbələ rayonunda turizmin inkişafı gündən-günə yüksəlir. Hər il heyrətamiz təbiəti ilə seçilən diyara gələn turistlərin sayı hiss olunacaq dərəcədə artır. Rayondakı müasir standartlara cavab verən mehmanxana və mehmanxana tipli obyektlərin çoxluğu və peşəkar personalın mövcudluğu turistlərin sayının artmasına ardıcıl olaraq şərait yaratsa da, bunun bir səbəbi də Qəbələ rayonunda keçirilən beynəlxalq tədbirlərdir.

Ənənəvi olaraq keçirilən Qəbələ VII Beynəlxalq Musiqi Festivalı ərəfəsində də turistlərin sayında artım müşahidə olunmuşdur. Hal-hazırda Qəbələdə "Azərbaycanda Koreya Filmləri Festivalı" keçirilir. Bu festivala da turistlərin gəlişi müşahidə olunur. Avqust ayının sonuna planlaşdırılan III Qəbələ Beynəlxalq Mürəbbə Festivalında da xarici və yerli turistlərin Qəbələyə axını olacağına əminik. Turistlər belə tədbirlərdə maraqla iştirak edir, mövcud adət-ənənələrimizlə tanış olur, yerli əhali ilə yaxınlıq edir, tanış olurlar. Turistlərin hər biri buradan öz vətəninə xoş təəssüratlarla qayıdır və bu yerlərin təbii gözəlliklərinə, insanların xoş rəftarına, mehriban münasibətlərinə heyran olduqlarını söyləyir, bu yerlərə bir də qayıdacaqlarını bildirirlər. Eyni zamanda rayonun coğrafi mövqeyi və rayonda olan tarixi abidələrə olan maraq da turistlərin bu bölgəyə axınına şərait yaradır. Əgər keçən ilin 6 ayı ərzində rayona 18000 nəfər turist gəlmişdisə, bu ilin 7 ayı ərzində rayona 25000 nəfərdən cox turist gəlmişdir. Onlardan 4000 nəfərə yaxını xarici turist olmuşdur.

Hal-hazırda rayonda 17 mehmanxana tipli obyekt mövcuddur. Bu obyektlərdə eyni vaxtda istirahət üçün ümumilikdə 2 minə yaxın yer vardır.

Otellərdə turistlər üçün əlavə xidmətlər də mövcuddur. Belə ki, balıq ovu, qayıq gəzintisi, meşə gəzintisi və muzey və abidələrə ekskursiyalar onların istirahətinin bir hissəsini təşkil edir. Ekskursiyalar zamanı rayon mədəniyyət və turizm şöbəsi tərəfindən turistlərə bələdçilər də verilir.

Sevindirici haldır ki, Qəbələ rayonunda yeni Turizm İnformasiya Mərkəzi açılmışdır. Mərkəzin açılışının rayonda turizmin geniş inkişaf etdirilməsində və turizm şirkətləri ilə əmkdaşlıq sahəsində böyük rolu olacağına əminik.

**Anar RÜSTƏMLİ,**
**rayon mədəniyyət və turizm şöbəsinin məsləhətçisi.**

Tarix-diyarşünaslıq muzeyində

## Azərbaycan kinosu günü ilə bağlı tədbir

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Azərbaycan kinosu günü" münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan kinosunun inkişafı, bu günü haqqında söhbət açılmışdır.

Məlum olduğu kimi 1916-cı ildə İbrahimbəy Musabəyovun "Neft və milyonlar səltənətində" əsəri əsasında eyni adlı ilk film çəkilmişdir. Muzeyin direktoru Xalis Məmmədov tədbir iştirakçıları qarşısında həmyerlimiz İ. B. Musabəyovun Azərbaycan xalqının tarixində ölkənin gələcəyi üçün etdiyi əvəzsiz xidmətləri, yaradıcılığı, həyat və fəaliyyəti haqqında geniş mövzuda çıxış etmişdir.

Sonda Azərbaycan kinosunun tarixi haqqında suallar cavablandırılmışdır.

* * *

## Qızıl əllərin yadigarları

Bütün maddi və mənəvi sərvətlərimizi qoruyan, təbliğ edən, tariximizi yaşadan Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin etnoqrafiya salonunda XIX əsrin orjinal nümunələri olan Qəbələ qadınlarının əl işləri daimi sərgidə nümayiş olunur. XIX əsrin nümunələri olan müxtəlif formalı pərdələr, pərdə başlıqları, böyük zövqlə naxışlanmış Quran qabları, kəmərlər, xurcunlar, heybələr, məfrəşlər, pul kisələri, tikmələr, süpürgə başlıqları və s. sərgidə böyük yer tutur.

Analarımızın böyük zövqlə işlənmiş əl işləri isə bu gün bizlərə müqəddəs ərmağan, tariximizin yadigarlarıdır. Xalqımızın qədim tarixini əks etdirən bu dəyərli nümunələri görmək istəyən hər kəsə muzeyimizin qapıları açıqdır.